# *Azərbaycan Respublikası Auditorlar Palatasının 2023-cü ildə fəaliyyətinin nəticələrinə dair*

## *H E S A B A T*

**B A K I - 2024**

***"İnanıram ki, tədbir hesabatlılıq və şəffaflıq mühitinin daha da yaxşılaşdırılması imkanlarının  müəyyənləşdirilməsi baxımından faydalı  olacaq, ölkələrimizin rifahının yüksəlməsinə töhfə verəcəkdir".***



***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
***"Dayanıqlı inkişaf. Hesabatlılıq. Şəffaflıq"***
***beynəlxalq elmi-praktik konfransının iştirakçılarına ünvanladığı 2023-cü il 15 sentyabr tarixli məktubundan***

Azərbaycan Respublikasının Auditorlar Palatası ölkə iqtisadiyyatının mühüm infrastruktur sahələrindən olan olan auditin inkişafı və onun beynəlxalq standartlara uyğun qurulması istiqamətində fəaliyyətini 2023-cü il ərzində də davam etdirmişdir. Auditorlar Palatası öz fəaliyyətini "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununa, "Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında" Əsasnaməyə, habelə "Azərbaycan Respublikasında auditor fəaliyyətinin inkişaf Konsepsiyasına (2021-2030-cu illər)", Palata Şurasının 2022-ci il 24 noyabr tarixli 350/1 nömrəli qərarı ilə təsdiq edilmiş Azərbaycan Respublikası Auditorlar Palatasının və Palata Şurasının 2023-cü il üzrə iş planlarına və digər sənədlərə müvafiq olaraq qurmuşdur.

Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 29 sentyabr tarixli Sərəncamına uyğun olaraq, Auditorlar Palatası "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 29 sentyabr tarixli Sərəncamından irəli gələn məsələlərin icrasına dair Tədbirlər Planı"nı 2022-ci il 12 oktyabr tarixində təsdiq etmiş və ötən il ərzində mühüm tədbirlər həyata keçirmişdir.

Azərbaycan Respublikası Auditorlar Palatasının 2023-cü il üzrə iş planı auditin təşkili və tənzimlənməsi, auditdə rəqəmsallaşma və innovasiyaların tətbiqi, beynəlxalq audit standartlarının tətbiqi, keyfiyyətə nəzarət, etika və şəffaflığın təminatı, kadr hazırlığı, beynəlxalq əlaqələr, audit sistemində icra intizamı və daxili nəzarət, nəşrlər, konfranslar və seminarlar, informasiya təminatı, palatadaxili tənzimləmə istiqamətlərində Palatanın fəaliyyətini özündə ehtiva etdirmişdir.

# *Bölmələr:*

*I.Giriş*

*II. Auditorlar Palatasının Dövlət Proqramlarında iştirakı*

*III. Auditin təşkili və tənzimlənməsi*

*IV. Auditor təşkilatlarının və sərbəst auditorların hesabat dövrünün yekunu üzrə fəaliyyətinə dair icmal-təhlil*

*V. Şəffaflığın təminatı və korrupsiyaya qarşı mübarizə*

*VI. Auditor xidmətinin keyfiyyətinə kənar nəzarət*

*VII. Auditor kadrlarının hazırlanması və peşə-ixtisas səviyyəsinin*

*VIII. Konfranslar, "dəyirmi masa"lar, seminarlar, ustad dərsləri və digər tədbirlər*

*IX. Beynəlxalq əlaqələr*

*X. Auditorlar Palatasının Şurası yanında komitələrin və komissiyanın fəaliyyəti*

*XI. Auditorlar Palatası Şurasının fəaliyyəti*

*XII. Auditorlar Palatasının maliyyə-təsərrüfat fəaliyyəti*

*XIII. İnformasiya-təbliğat və nəşriyyat fəaliyyəti*

**Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından, Nazirlər Kabinetindən, İqtisadiyyat Nazirliyindən və digər nazirlik, komitə, qeyri-hökumət orqanlarından Auditorlar Palatasına daxil olmuş tapşırıq və məktubların icrası təmin edilmişdir.**

Auditorlar Palatasının gördüyü işlər ötən illərdə artdığı kimi 2022-ci il ilə müqayisədə,

**2023-cü ildə də artaraq əlavə 34 iş olmaqla, ümumilikdə 132 tədbir həyata keçirilmişdir.**

**Eyni zamanda hesabat ili ərzində 1704 plandankənar işlər icra edilmişdir ki, onlardan 869-u Palatadaxili, 835-i Palataya kənardan daxil olan, 11-i isə xüsusi əhəmiyyətli “nəzarətdə olan” işlər olmuşdur.**

## 2022-ci il

- Sərbəst auditorların sayı: **57**
- Auditorlar təşkilatlarının sayı: **153**
- Fəxri üzvlərin sayı: **38**
- Asossosiativ üzvlərin sayı: **43**

## 2023-cü il

- Sərbəst auditorların sayı: **69**
- Auditorlar təşkilatlarının sayı: **157**
- Fəxri üzvlərin sayı: **38**
- Asossosiativ üzvlərin sayı: **44**



***Auditorlar Palatası 2023-cü ili "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə (ƏL/TMM) ili" elan etmişdir.***

# *«Heydər Əliyev ilinə həsr olunmuş silsilə tədbirlər»*

HEYDƏR ƏLİYEV

100



***2023-cü il ərzində***
Auditorlar Palatası tərəfindən Heydər Əliyev ilinə həsr olunmuş **3** konfrans, **1** tədbir və **1** Dəyirmi Masa keçirilmişdir

**2023-cü il 27 mart** tarixində “Heydər Əliyev İli” çərçivəsində “Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin iqtisadi irsi” mövzusunda **Dəyirmi Masa** keçirilmişdir.

**Azərbaycan Respublikasının Auditorlar Palatası və İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin birgə təşkilatçılığı ilə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr edilmiş "Rəqabət dayanıqlı inkişafın mühüm amili kimi" mövzusunda beynəlxalq elmi-praktik konfrans.**

28/04/2023








Bazarına Nəzarət
Dövlət Xidməti
Chamber of Auditors
of the Republic of Azerbaijan
State Service for Antimonopoly and
Consumer Market Control under the Ministry
of Economy of the Republic of Azerbaijan
Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 illiyinə həsr edilmiş
«RƏQABƏT – DAYANIQLI İNKİŞAFIN MÜHÜM AMİLİ KİMİ
ELMİ-PRAKTİK KONFRANS)
Bakı, 28 aprel 2023-cü il

**Azərbaycan Respublikasının Auditorlar Palatasında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş Auditorlar Palatasının inzibati binasında Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin büstünün açılış mərasimi baş tutmuşdur.**

01/05/2023




N ÇAĞIRIŞLARINI NƏZƏRƏ ALARAQ,

**Azərbaycan Respublikasının Hesablama Palatası və Auditorlar Palatasının birgə təşkilatçılığı ilə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr edilmiş “Dayanıqlı inkişaf. Hesabatlılıq. Şəffaflıq” mövzusunda beynəlxalq-elmi praktik konfrans.**

**15-16 sentyabr 2023-cü il**

## “Dayanıqlı inkişaf. Hesabatlılıq. Şəffaflıq” mövzusunda beynəlxalq elmi-praktiki konfransın iştirakçılarına

15 sentyabr 2023, 15:06

Hörmətli konfrans iştirakçıları!

Sizi Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Dayanıqlı inkişaf. Hesabatlılıq. Şəffaflıq” mövzusunda beynəlxalq elmi-praktiki konfrans münasibətilə səmimi-qəlbdən salamlayıram.

Məhz Heydər Əliyevin demokratik, hüquqi dövlət quruculuğu yolunda yorulmaz səyləri, polad iradəsi sayəsində Azərbaycanda şəffaf maliyyə və audit sistemi qurulmuşdur. Anadan olmasının 100 illiyini qeyd etdiyimiz bu ildə biz Ulu Öndər tərəfindən təməli qoyulmuş, dinamik inkişaf edən güclü iqtisadiyyat görürük.

Müstəqilliyimizin ilk illərində iflasa uğramış ölkə iqtisadiyyatını dirçəltməyin yeganə yolunu bazar iqtisadiyyatına keçiddə, dünya iqtisadiyyatına inteqrasiyada görən Ümummilli Lider irimiqyaslı islahatlara start vermişdir. Onun rəhbərliyi ilə korporativ idarəetmənin təkmilləşdirilməsi, azad rəqabət mühitinin dəstəklənməsi sahəsində görülən fundamental tədbirlər azad sahibkarlığın inkişafını ön plana çəkmişdir. Eyni zamanda Heydər Əliyevin uzaqgörən siyasəti, böyük dövlətçilik təcrübəsi və strateji baxışı ölkənin iqtisadi inkişafını təmin etməklə yanaşı, çoxvektorlu iqtisadi siyasətimizin əsasını qoymuş, Azərbaycana dünyada etibarlı tərəfdaş statusu qazandırmışdır.

Azərbaycanda şəffaflığın artırılması və maliyyə nəzarətinin gücləndirilməsi sahəsində beynəlxalq audit və beynəlxalq mühasibat uçotu standartlarına keçidin əhəmiyyəti xüsusi qeyd edilməlidir. Həyata keçirilmiş kompleks tədbirlər yeni dövrün iqtisadi çağırışlarını nəzərə almaqla, ölkədə maliyyə-uçot sisteminin beynəlxalq tələblər əsasında təkmilləşdirilməsinə, iqtisadiyyatımızın dünya təsərrüfat sisteminə inteqrasiya imkanlarının gücləndirilməsinə şərait yaratmışdır.

Hesabatlılığın və obyektiv keyfiyyətli informasiya təminatının başlıca amili qismində şəffaflıq həm də resurslardan səmərəli və məqsədyönlü istifadənin əsası kimi dəyərləndirilməlidir. Müasir dövrümüzün qlobal çağırışlarına effektiv və çevik reaksiya verilməsi, eləcə də hazırkı dönəmdə Azərbaycan üçün ən önəmli məsələlərdən olan işğaldan azad edilmiş ərazilərdə quruculuq-bərpa işləri ölkəmizdə maliyyə sektorunda aparılan islahatların daha da gücləndirilməsini, maliyyə imkanlarının səfərbər olunmasını labüd edir. Dövlətin maliyyə resurslarının qorunub saxlanılması, onlardan məqsədyönlü, qənaətli və səmərəli istifadə üçün bu sahədə nizam-intizamın möhkəmləndirilməsi, şəffaflığın artırılması və dövlət nəzarəti mexanizminin təkmilləşdirilməsi vacibdir. Həmçinin milli iqtisadiyyatımızın dayanıqlı inkişafını şərtləndirən amillər qismində yeni dövrün tələblərinə uyğunlaşdırılmış dövlət nəzarəti və müstəqil audit sisteminin, habelə qeyri-dövlət nəzarətinin önəmli bir forması kimi ictimai nəzarətin əhəmiyyətini xüsusi vurğulamaq lazımdır.

Hörmətli konfrans iştirakçıları!

Bugünkü konfrans dayanıqlı inkişaf, hesabatlılıq, şəffaflıq məsələləri ilə bağlı qlobal gündəlikdə dayanan çağırışların və imkanların müzakirəsi, bu sahədə qabaqcıl təcrübə mübadiləsi üçün əlverişli fürsətdir. İnanıram ki, tədbir hesabatlılıq və şəffaflıq mühitinin daha da yaxşılaşdırılması imkanlarının müəyyənləşdirilməsi baxımından faydalı olacaq, ölkələrimizin rifahının yüksəlməsinə töhfə verəcəkdir.

Bir daha sizə ən xoş arzularımı yetirir, konfransın işinə uğurlar diləyirəm.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti





**Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti və Auditorlar Palatasının birgə təşkilatçılığı ilə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr edilmiş “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə nəzarət orqanlarının rolu və vəzifələri” mövzusunda elmi-praktik konfrans.**

27/10/2023




QANUNLA MÜƏYYƏN EDİLMİŞ VERGİLƏRİ
VƏ BAŞQA DÖVLƏT ÖDƏNİŞLƏRİNİ TAM
HƏCMDƏ VƏ VAXTINDA ÖDƏMƏK HƏR
KƏSİN BORCUDUR.
Azərbaycan Respublikasının
Konstitusiyası. Maddə 73.
AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİYEVİN
100 İLLİK YUBİLEYİNƏ HƏSR EDİLMİŞ
"CİNAYƏT YOLU İLƏ ƏLDƏ EDİLMİŞ ƏMLAKIN LEQALLAŞDIRILMASINA
VƏ TERRORÇULUĞUN MALİYYƏLƏŞDİRİLMƏSİNƏ QARŞI MÜBARİZƏDƏ
NƏZARƏT ORQANLARININ ROLU VƏ VƏZİFƏLƏRİ"
ELMİ - PRAKTİK KONFRANS | Bakı, 27 oktyabr 2023-cü il
Maliyyə Monitorinqi Xidməti

# AUDİTORLAR PALATASININ DÖVLƏT PROQRAMLARINDA İŞTİRAKI

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 04 aprel tarixli 3199 nömrəli sərəncamı ilə təsdiq edilmiş **“Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı**”

Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 fevral tarixli 3770 nömrəli Sərəncamı ilə təsdiq edilmiş **Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023-2025-ci illər üzrə Milli Fəaliyyət Planı**

# *AUDİTİN TƏŞKİLİ VƏ TƏNZİMLƏNMƏSİ*

## *2023-cü il ərzində Auditorlar Palatası tərəfindən verilmiş icazələr:*

| | |
|---|---|
| 26 auditor təşkilatı və 19 sərbəst auditor | • Ölkədə auditor fəaliyyətini həyata keçirmək üçün müvafiq icazə verilmişdir. |
| 26 auditor təşkilatı və 8 sərbəst auditor | • İcazəsinin müddəti uzadılmış, o cümlədən 24 auditor hüquqi təşkilat tərkibində fəaliyyət göstərmişdir. |
| 12 auditor təşkilatı və 9 sərbəst auditor | • Fəaliyyətləri dayandırmışdır. |
| 4 sərbəst auditor | • Fəaliyyətini təşkilat daxilində davam etdirməyə başlamışdır. |

**Beynəlxalq Audit Standartlarının tətbiqi sahəsində 2023-cü il ərzində 2 metodik vəsait hazırlanmışdır:**

*Keyfiyyətin idarə edilməsi üzrə standartlar seriyası: kiçik şirkətlərdə tətbiq etmənin birinci hissəsi*: Keyfiyyətin idarə edilməsi üzrə yeni standartlara hazırlaşmağın vaxtıdır" adlı metodik vəsait (https://audit.gov.az/Upload/Files/2019/IFAC-quality-management-small-firm-implementation-installment-one_AZ.pdf

"*Keyfiyyətin idarə edilməsi üzrə standartlar seriyası: kiçik şirkətlərdə tətbiqetmənin ikinci hissəsi:* Təfərrüatlı icra planının hazırlanması" adlı metodik vəsait (https://audit.gov.az/Upload/Files/2019/IFAC-Quality-Management-Series-installment-2-detailed-implementation-plan_AZ.pdf)

**Bu standartlar Palatanın internet səhifəsində yerləşdirilmiş və "Auditorun şəxsi kabineti" sistemi ilə auditor təşkilatlarına və sərbəst auditorlara göndərilmişdir.**

# Beynəlxalq peşəkar qurumlarla iş

Auditorlar Palatasının üzv olduğu peşəkar qurumlar aşağıdakılardır:

- Avropa Mühasiblər və Auditorlar Federasiyası (EFAA) – 2003-cü il may;
- Sertifikatlı Mühasiblərin və Auditorların Avrasiya Şurası (ESSBA) – 2007-ci il aprel;
- Beynəlxalq Mühasiblər Federasiyası (IFAC) – 2008-ci il noyabr;
- Avrasiya Mühasiblər və Auditorlar Qrupu – 2021-ci il dekabr.

# Audit sistemində icra intizamı və daxili nəzarət

Audit sistemində icra intizamı və daxili nəzarət üzrə 2023-cü il ərzində aşağıdakı işlər görülmüşdür:

Cədvəl 1.

| Sıra №-si | Adı |
|---|---|
| 1. | Palata Şurasının qərarları, Palata sədrinin əmr və sərəncamları ilə Palata üzvlərinə verilmiş tapşırıqların icra vəziyyətinin müntəzəm olaraq monitorinqi və təhlili aparılmışdır; |
| 2. | Auditor təşkilatlarının və sərbəst auditorların Maliyyə Monitorinqi Xidmətindən qeydiyyatdan keçmələri təmin olunmuşdur; |
| 3. | "Auditorların peşə məsuliyyətinin icbari sığortası haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq olaraq auditorların peşə məsuliyyətinin icbari sığortası təmin olunmuşdur |
| 4. | Monitorinqdə iştirak edən digər şəxslərə münasibətdə həyata keçirilmiş nəzarət yoxlamaları barədə ətraflı məlumatın hazırlanması və Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinə müntəzəm olaraq təqdim edilməsi təmin edilmişdir; |
| 5. | Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən ƏL/TMM üzrə daxili nəzarət, habelə eyniləşdirmə və verifikasiya qaydalarının hazırlanması və qəbul edilmişdir; |
| 6. | Palatanın üzvləri tərəfindən Partnyorluq Sazişinə əməl edilməsinin monitorinqi aparılmışdır; |
| 7. | Palata üzvlərinin “Auditorun şəxsi kabineti” sistemində fəaliyyətinin,  Palatada fəaliyyət göstərən “Dəyirmi masa”, təşkil olunan konfrans, seminar, ustad dərsləri və s. tədbirlərdə iştirakının mütəmadi olaraq monitorinqi aparılmışdır; |
| 8. | Palatanın Şurası tərəfindən qəbul edilmiş qərarların, təsdiq olunmuş/bəyənilmiş metodik materialların, Palata sədrinin əmr və sərəncamalarının auditor təşkilatlarına və sərbəst auditorlara müntəzəm olaraq çatdırılması təmin edilmişdir. |

**2023-cü il ərzində auditor xidməti sahəsində haqsız rəqabətin normativ və metodiki bazasının təkmilləşdirilməsi məqsədi ilə xarici təcrübədən yararlanmaqla 5 metodik vəsait hazırlanmışdır. Həmin vəsaitlər Auditorlar Palatası Şurasının müvafiq qərarları ilə təsdiq edilərək Palatanın internet səhifəsində yerləşdirilmişdir.**

Cədvəl 2.

| Sıra №-si | Mövzu |
|---|---|
| 1. | "Peşə mənsublarının fəaliyyətinin ilkin təməl pirinsipləri" |
| 2. | "Auditor fəaliyyəti sahəsində haqsız rəqabət hallarının qarşısının alınmasına dair intizam tədbirləri sistemi" |
| 3. | "Haqsız rəqabətə qarşı mübarizə üzrə Komitənin hüquqi əsasları, məqsədi, vəzifə və səlahiyyətləti barədə Təlimat" |
| 4. | "Auditorun şəxsi kabineti" sistemində auditor təşkilatlarının və sərbəst auditorların fəaliyyətini əks etdirən, yarımillik (illik) hesabatın, müqavilələrin və rəylərin qeydiyyatı haqqında Təlimat" |
| 5. | "Haqsız rəqabətə qarşı mübarizə üzrə metodik materiallar toplusu" (Topluya xarici təcrübə nəzərə alınmaqla 11 metodik vəsait daxildir). |

# Rəqəmsallaşma sahəsində görülmüş işlər

***Palatanın rəsmi internet səhifəsi***

audit.gov.az saytında olan "Sorğu" bölməsi "Sorğular və ekspertizalar kitabxanası" bölməsi ilə əvəz edilərək məzmunu yenilənmişdir.

Auditin dəyərini hesablamaq üçün onlayn kalkulyator yaradılmış və Palatanın rəsmi internet səhifəsinə inteqrasiya edilmişdir. https://audit.gov.az/Az/page/1617

"Daxili auditor" bölməsi yaradılmışdır.

***"Auditorun şəxsi kabineti" sistemi***

- "Auditorun şəxsi kabineti" sistemində hesabatların avtomatik olaraq yaradılması və təhlili prosedurlarının aparılması.
- "Müqavilələrin/Rəylərin qeydiyyatı" funksiyasının əlavə edilməsi.
- Kibertəhlükəsizliyin təmin olunması istiqamətində tədbirlər.

## AUDİTOR TƏŞKİLATLARININ VƏ SƏRBƏST AUDİTORLARIN HESABAT DÖVRÜNÜN YEKUNU ÜZRƏ FƏALİYYƏTİ

Hesabat dövrü ərzində 157 auditor təşkilatının və 69 sərbəst auditorun (o cümlədən 4 "Böyük Dördlük" və 13 xarici hüquqi şəxslərin ticarət nişanından istifadə edən auditor təşkilatı) auditor fəaliyyətini həyata keçirmək hüququ olmuşdur *(Cədvəl 1)*.

2023-cü il ərzində:

- ✓ 26 auditor təşkilatına və 19 sərbəst auditora ölkədə auditor fəaliyyətini həyata keçirmək üçün müvafiq icazə verilmiş,
- ✓ 26 auditor təşkilatının və 8 sərbəst auditorun icazəsinin müddəti uzadılmış, o cümlədən 24 auditor hüquqi təşkilat tərkibində fəaliyyət göstərmiş,
- ✓ 12 auditor təşkilatı və 9 sərbəst auditor fəaliyyətini dayandırmış,
- ✓ 4 sərbəst auditor isə fəaliyyətini təşkilat daxilində davam etdirməyə başlamışdır.

*Cədvəl 3.*

| **Auditorlar Palatasının üzvləri** | Fəaliyyət göstərənlər | Fəaliyyəti dayandırılanlar | Fəaliyyətini bərpa edənlər | Yeni icazə alanlar | İcazəsinin fəaliyyət müddəti bitənlər |
|---|---|---|---|---|---|
| **Böyük Dördlük** | 4 | 0 | 0 | 0 | 0 |
| **Xarici hüquqi şəxslərin ticarət nişanından istifadə edən auditor təşkilatları** | 13 | 1 | 0 | 0 | 0 |
| **Yerli auditor təşkilatları** | 140 | 12 | 6 | 26 | 1 |
| **Sərbəst auditorlar** | 69 | 9 | 1 | 19 | 1 |
| **Cəmi** | 226 | 22 | 7 | 45 | 2 |

# *Auditor xidmətinin göstərilməsinə dair bağlanmış müqavilələrin sayı:*

*Diaqram 1.*




**2023-cü il üzrə 157 auditor təşkilatı və 69 sərbəst auditor fəaliyyət göstərmişdir.**

# *Auditor xidmətinin göstərilməsinə dair bağlanmış müqavilələrin məbləğləri (mln.manatla)*

*Diaqram 2.*



# *Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən bağlanmış müqavilələrin sayının muqayisəsi*

*Diaqram 3.*



## *Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən bağlanmış müqavilələrin məbləği (mln.manatla)*

*Diaqram 4.*



## *Auditor xidmətinin göstərilməsinə dair yerinə yetirilmiş müqavilələrin sayı*

*Diaqram 5.*



## *Auditor xidmətinin göstərilməsinə dair yerinə yetirilmiş müqavilələrin məbləği (mln.manatla)*

Diaqram 6.



# *Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən yerinə yetirilmiş müqavilələrin sayı*

*Diaqram 7.*



# *Auditor təşkilatları və sərbəst auditorlar tərəfindənyerinə yetirilmiş müqavilələrin məbləği (mln.manatla)*

*Diaqram 8.*



## Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən yerinə yetirilmiş müqavilələrin auditor xidmətinin növləri üzrə saylarının müqayisəsi (ədədlə)

*Diaqram 9.*



## Auditor təşkilatları  və sərbəst auditorlar tərəfindən yerinə yetirilmiş müqavilələrin auditor xidmətinin növləri üzrə məbləğlərinin müqayisəsi

*Cədvəl 4.*

| Sıra № | Audit xidmətlərinin növü | 2022-ci il | 2023-cü il |
|---|---|---|---|
| 1. | MHA | 48,3 mln | 63,0 mln |
| 2. | NKA | 366,3 min | 743,5 min |
| 3. | VHA | 845,5 min | 820,5 min |
| 4. | ƏQA | 225,8 min | 730,7 min |
| 5. | MUX | 438,4 min | 458,9 min |
| 6. | MX | 9,3 mln | 15,7 mln |
| 7. | SDOSA | 76,5 min | 42,3 min |
| 8. | İƏB | 387,3 min | 3,4 mln |
| 9. | HŞS | _ | 3,0 min |
| 10. | DX | 11,9 mln | 10,2 mln |

***(Manatla)***

## *Auditor xidmətinin göstərilməsinə dair ləğv olunmuş müqavilələrin sayı (ədədlə)*

*Diaqram 10.*



***Auditor xidmətinin göstərilməsinə dair ləğv olunmuş müqavilələrin məbləği (min manatla)***

*Diaqram 11.*



## *Auditor xidmətinin göstərilməsinə dair yerinə yetirilməmiş müqavilələrin sayı (ədədlə)*

*Diaqram 12.*



## *Auditor xidmətinin göstərilməsinə dair yerinə yetirilməmiş müqavilələrin məbləği (mln manatla)*

*Diaqram 13.*



## *2023-cü il ərzində icra olunmuş müqavilələrin məcburi və könüllü audit subyektləri üzrə müqayisəsi*

*Diaqram 14.*



# *2022-2023-cü illər üçün icra olunmuş müqavilələrin məcburi və könüllü audit subyektləri üzrə müqayisəsi*

*Diaqram 15.*



# 2023-cü il ərzində Respublika üzrə 4937 məcburi audit subyektindən 2962-i (60,0%) auditdən keçmişdir.

*Cədvəl 5.*

| Məcburi audit subyektinin təşkilati-hüquqi forması | Respublika üzrə məcburi audit subyektlərinin sayı | 2023-ci il üzrə məcburi auditdən keçən təsərrüfat subyektlərinin sayı | Auditdən keçmə %-i |
|---|---|---|---|
| Səhmdar cəmiyyətləri | 377 | 214 | 57,0% |
| Məhdud məsuliyyətli cəmiyyətlər | 2862 | 1942 | 68,0% |
| Bələdiyyələr | 1606 | 744 | 46,3% |
| Banklar | 23 | 23 | 100,0% |
| Sığorta təşkilatları | 19 | 19 | 100,0% |
| Siyasi partiyalar | 50 | 20 | 40,0% |
| CƏMİ | 4937 | 2962 | 60,0% |

# Auditlərin nəticələrinə dair verilmiş rəylərin növləri üzrə təhlili

*Cədvəl 6.*

| | Müsbət rəylərin sayı (ədədlə) | | Şərti müsbət rəylərin sayı (ədədlə) | | Mənfi rəylərin sayı (ədədlə) | | Rəy verilməsindən imtina | |
|---|---|---|---|---|---|---|---|---|
| | 2022 | 2023 | 2022 | 2023 | 2022 | 2023 | 2022 | 2023 |
| Böyük dördlük üzrə | 200 | 163 | 27 | 27 | 1 | 0 | 3 | 2 |
| Xarici hüquqi şəxslərin ticarət nişanından istifadə edən auditor təşkilatları üzrə | 318 | 338 | 18 | 33 | 0 | 0 | 1 | 2 |
| Yerli auditor təşkilatları üzrə | 1974 | 2509 | 718 | 689 | 21 | 30 | 3 | 2 |
| Sərbəst auditorlar üzrə | 1097 | 982 | 151 | 509 | 10 | 18 | 3 | 3 |
| CƏMİ | 3589 | 3992 | 914 | 1258 | 32 | 48 | 10 | 9 |

# ŞƏFFAFLIĞIN TƏMİNATI VƏ KORRUPSİYAYA QARŞI MÜBARİZƏ

"Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı" üzrə:



# Vətəndaşların qəbulunun, ictimai nəzarətin, Apellyasiya komissiyasının fəaliyyətinin təşkili, daxil olmuş ərizə və şikayətlərə baxılması




Müraciətlərə müvafiq qaydada baxılmışdır.

# AUDİTOR XİDMƏTİNİN KEYFİYYƏTİNƏ KƏNAR NƏZARƏT




Hesabatlar Keyfiyyətə nəzarət və keyfiyyətin idarə edilməsi üzrə komitəyə təqdim edilmişdir.

Beynəlxalq Audit Standartlarının tələblərinə uyğunluğunun keyfiyyətə kənar nəzarət qaydasında aparılmış monitorinqinin nəticəsi aşağıdakı kimi qiymətləndirilmişdir:

Cədvəl 7.

| keyfiyyətli | A (5) | 1 |
|---|---|---|
| qənaətbəxş | B (4) | 23 |
| qismən qənaətbəxş | C (3) | 13 |
| qeyri-qənaətbəxş | D (2) | 14 |

# AUDİTOR KADRLARININ HAZIRLANMASI VƏ PEŞƏ-İXTİSAS SƏVİYYƏSİNİN YÜKSƏLDİLMƏSİ

**Auditor adı almaq üçün imtahanların keçirilməsi**

Icazəsinin qüvvədəolma müddətinin başa çatmış və auditor adı almaq üçün müraciət etmiş 58 nəfər müvəffəq qiymətlərlə imtahan vermişlər;

**2023-cü ildə aşağıdakı kurslar təşkil edilmişdir:**

Cədvəl 8.

| Adı | İştirakçı sayı |
|---|---|
| İxtisasartırma kursları | 218 nəfər |
| Əlaqəli auditor xidmətləri üzrə xüsusi ixtisasartırma kursları | 56 nəfər |
| Auditor təşkilatlarının assistent və mütəxəssisləri üçün ixtisasartırma kursları | 122 nəfər |
| Şirkətdaxili keyfiyyətə nəzarət üzrə kadr hazırlığı | 89 nəfər |
| Daxili audit kurslarının keçirilməsi | 12 nəfər |
| Publik hüquqi şəxslərdə daxili nəzarət və daxili audit üzrə kurslar | 11 nəfər |

**Təlimlər: Palatanın əməkdaşları və üzvləri üçün müvafiq mövzularda 16 təlim (o cümlədən, 7 günlük) təşkil edilmişdir.**

***DƏYİRMİ MASALAR, SEMİNARLAR, USTAD DƏRSLƏRİ VƏ DİGƏR TƏDBİRLƏR***

# *«Dəyirmi masa»lar*

*2023-cü il ərzində* ***4*** *«Dəyirmi masa» keçirilmişdir.*

1. “Auditdə kadr problemi”;
2. “Qeyri-maliyyə hesabatlarının auditinin aparılmasına dair metodik göstəriş”;
3.“Sosial auditin aparılmasına dair metodik vəsait”;
4. “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi”.

# *Seminarlar*

*2023-cü il ərzində **11** seminar keçirilmişdir.*

| Sıra №-si | Mövzu |
|---|---|
| 1. | “Azərbaycan qanunvericiliyində yeniliklər və onların auditə təsiri” |
| 2. | “Auditor xidmətinin dəyərinin nümunəvi hesablama metodikası” |
| 3. | “2022-ci il üçün maliyyə hesabatlarının auditinin xüsusiyyətləri və auditor hesabatlarının hazırlanmasında Beynəlxalq Audit Standartlarının tətbiqi məsələləri” |
| 4. | “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının qanunvericiliyində dəyişiklik edilməsi barədə” |
| 5. | “Hədəfli maliyyə sanksiyalarının tətbiqi” |
| 6. | “Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə kənar nəzarət üzrə Qayda”ların tətbiqi |
| 7. | Dövlət büdcəsinə məcburi ödənişlərin düzgün hesablanması və ödənilməsi istiqamətində auditorların öhdəliklərinin artırılması və məsuliyyətlərinin gücləndirilməsi |
| 8. | “Auditorun şəxsi kabineti” sistemində auditor təşkilatlarının və sərbəst auditorların fəaliyyətini əks etdirən yarımillik (illik) hesabatın, müqavilələrin və rəylərin qeydiyyatı haqqında” Təlimat barədə |
| 9. | “Beynəlxalq Mühasiblər Federasiyasının (IFAC) Beynəlxalq Audit və Təsdiqləmə Standartları Şurasının (IAASB) kiçik auditor təşkilatları üçün nəzərdə tutulmuş keyfiyyətin idarə edilməsi standartlarının 1-ci və 2-ci hissəsinə dair metodik vəsaitlərin tətbiqi” |
| 10. | “Auditorun şəxsi kabineti” sistemində tətbiq edilmiş yeniliklər” |
| 11. | “Audit sistemində minimum hədlərin hesablanmasına dair onlayn kalkulyator sisteminin tətbiqi” |

## *Ustad Dərsləri*

*Auditorlar Palatası tərəfindən 2023-cü ildə* ***9 ustad dərsi*** *keçirilmişdir.*

| Sıra №-si | Mövzu |
|---|---|
| 1. | Qabaqcıl auditorların və auditor təşkilatlarının nümayəndələrinin aparmış olduqları auditlərin tədris vəsaiti kimi müvafiq proqrama salınmaqla auditorlara metodiki dəstəyin göstərilməsi” mövzusunda ustad dərsində “Maliyyə hesabatları üzrə nümunəvi audit faylının təqdimatı” |
| 2. | “Maliyyə hesabatlarının auditi zamanı dələduzluqla bağlı auditorların məsuliyyəti barədə” |
| 3. | “10 saylı BMUS: Hesabat dövründən sonrakı hadisələr” və “560 saylı BAS: Sonrakı hadisələr” |
| 4. | “İstehsal müəssisələrində məhsulun maya dəyərinin düzgünlüyünün auditi” |
| 5. | “Dövlət sifarişi ilə audit tapşırıqlarının icra edilməsi” |
| 6. | “Əsas vəsaitlərin uçotunun auditi” |
| 7. | “Vergi və mühasibat uçotu fərqləri ilə bağlı audit zamanı tələblər” |
| 8. | “Əlaqəli auditor xidmətləri üzrə nümunəvi audit faylının təqdimatı”; |
| 9. | “220 saylı BAS: Maliyyə hesabatlarının auditinin keyfiyyətinə nəzarət” |

**Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA), Auditorlar Palatasının, Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının, Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin və KOBİA yanında İctimai Şuranın təşkilatçılığı ilə "Audit və qiymətləndirmə fəaliyyəti" mövzusunda ictimai müzakirə keçirilmişdir.**

15/06/2023




aycanın sosial-iqtisadi inkişafını bilavasitə
lıqla, onun inkişafı ilə bağlayırıq.
Heydər Əliyev

**Anım Günündə Auditorlar Palatasının kollektivi Bakıda inşası davam etdirilən Zəfər parkında olublar. Palata kollektivi parkın girişində xatirə daşının önünə gül dəstələri qoyub, Vətən uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsini yad ediblər.**

27/09/2023




QARABAĞ
AZƏRBAYCANDIR!


AĞ ŞƏHƏR BULVARI
(White City boulevard)
Prezident İlham Əliyevin
Sərəncamı ilə inşa edilmişdir.
2015

**Auditorlar Palatasının sədri, professor Vahid Novruzov Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Goranboy rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə "Zəfərə gedən yol-1993-2023" mövzusunda konfransda iştirak və çıxış etmişdir.**

08/11/2023







# Auditorlar Palatasının keçirdiyi və iştirak etdiyi beynəlxalq tədbirlər

***Auditorlar Palatasının sədri Vahid Novruzov Avrasiya Mühasiblər və Auditorlar Qrupunun sədri vəzifəsinə seçilmişdir.***

14/02/2023



***Azərbaycan Respublikasının Auditorlar Palatası, Dövlət İmtahan Mərkəzi vəe İmtiyazlı Sertifikatlaşmış Mühasiblər Assosiasiyası (ACCA) “Azərbaycanda maliyyə və mühasibatlıq sahələri üzrə professionallar üçün trendlər’’ mövzusunda birgə tədbir keçirmişdir.***

09/03/2023



***Azərbaycan Respublikası Auditorlar Palatasının nümayəndə heyəti Lissabonda keçirilən Avropa Mühasiblər və Auditorlar Federasiyasının beynəlxalq konfransında və İllik Ümumi Yığıncağında iştirak etmişdir.***

25/05/2023– 26/05/2023



***Auditorlar Palatasının nümayəndə heyəti Rusiya Federasiyasının “Sodrujestvo” Özünütənzimləyən Auditor Təşkilatları Assosiasiyası tərəfindən keçirilmiş 7-ci beynəlxalq elmi-praktiki konfransda iştirak etmişlər.***

25/05/2023– 27/05/2023





***Auditorlar Palatasının nümayəndə heyəti Qırğızıstan Respublikasının Çolpan-Ata (İssık-Kul) şəhərində keçirilmiş “Beynəlxalq Audit və Maliyyə Hesabatları Standartlarının tətbiqi”nə həsr olunmuş beynəlxalq konfransda iştirak etmişdir.***

15/08/2023 – 21/08/2023







МЕЖДУНАРОДНАЯ
КОНФЕРЕНЦИЯ
«МОЛИЯВИЙ ҲИСОБОТЛАРНИНГ ХАЛҚАРО СТАНДАРТЛАРИНИ
ДАВЛАТЛАР ИҚДИСОДИЁТИДАГИ МУҲИМ ЎРНИ ВА МУАММОЛАРИ.»
«ПРОБЛЕМЫ И ЗНАЧИМОСТЬ МСФО В ЭКОНОМИКАХ СТРАН.»
ИНАУДИТ

# *Auditorlar Palatasının yerli və xarici ölkələrin audit, mühasibatlıq və qiymətləndirmə qurumları ilə əlaqələrinin genişləndirilməsi üzrə 2023-cü il ərzində imzaladığı Əməkdaşlıq Müqaviləsi və Memorandumlar*

***Auditorlar Palatasında Azərbaycan Respublikasının Auditorlar Palatası və Ali təhsil üzrə federal dövlət büdcəli təhsil müəssisəsi "Voronej Dövlət Universiteti" arasında Anlaşma Memorandumu imzalanmışdır.***

24/05/2023



## *Azərbaycan Respublikasının Auditorlar Palatası ilə İsrailin Sertifikatlaşdırılmış İctimai Mühasiblər İnstitutu arasında Anlaşma Memorandumu imzalanmışdır.*

28/07/2023



***Azərbaycan Respublikasının Auditorlar Palatası ilə Pakistanın İmtiyazlı Mühasiblər İnstitutu arasında Anlaşma Memorandumunun imzalanmasına dair tədbir keçirilmişdir.***

01/12/2023



***Azərbaycan Respublikasının Auditorlar Palatası və Azərbaycan Qiymətləndiricilər Cəmiyyəti arasında qarşılıqlı əməkdaşlıq haqqında müqavilə imzalanmışdır.***

26/12/2023




AZƏRBAYCAN RESPUBLİKASININ
1995
AUDİTORLAR PA
Azərbaycan Re
Kiçik və Orta
İnkişafı A



# AUDİTORLAR PALATASININ ŞURASI YANINDA KOMİTƏLƏRİN VƏ KOMİSSİYANIN FƏALİYYƏTİ

2023-cü ildə Auditorlar Palatasının Şurası yanında adları aşağıda qeyd olunan komitələr və komissiya fəaliyyət göstərmişdir:

- Beynəlxalq Audit Standartları, auditor fəaliyyətinin metodoloji və hüquqi təminatı üzrə komitə
- Keyfiyyətə nəzarət və keyfiyyətin idarə edilməsi üzrə komitə
- Haqsız rəqabətə qarşı mübarizə üzrə komitə
- Beynəlxalq əlaqələr və xarici təşkilatlarla iş üzrə komitə
- Auditorların ixtisasartırması və peşə təhsili üzrə komitə
- Etika, mübahisələr və intizam komissiyası

Komitələr  və komissiya öz fəaliyyətlərini Palatanın struktur bölmələri ilə bərabər iş planına müvafiq formada qurmuş və səlahiyyətləri çərçivəsində öhdəliklərini yerinə yetirmişlər.

# AUDİTORLAR PALATASI ŞURASININ FƏALİYYƏTİ

2023-cü il ərzində Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 10 iclası (fəaliyyətə başladığı dövrdən hesabat ilinin sonunadək üç yüz altmış iki iclas) keçirilmişdir.

Diaqram 16.

Şura iclaslarında aşağıdakı mövzulara aid 60 məsələ müzakirə olunmuşdur:



# AUDİTORLAR PALATASININ MALİYYƏ-TƏSƏRRÜFAT FƏALİYYƏTİ

Cədvəl 9.

2022-ci il ilə müqayisədə 2023-cü il maliyyə-təsərrüfat fəaliyyətinin nəticələri aşağıdakı cədvəldə və diaqramda əksini tapmışdır:

| İllər | Gəlir | Xərc | Mənfəət/Zərər |
|---|---|---|---|
| 2021 | 1 113 041,75 | 1 038 565,78 | 74 475,97 |
| 2022 | 1 110 945,7 | 965 951 | 144 994,7 |

Diaqram 17.



# Auditə dair kitabların nəşri




“Rəqabət – Dayanıqlı inkişafın mühüm amili kimi" mövzusunda keçirilən beynəlxalq elmi-praktik konfransın materialları




“Dayanıqlı inkişaf. Hesabatlılıq. Şəffaflıq” mövzusunda keçirilən beynəlxalq elmi-praktik konfransın materialları




"Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə nəzarət orqanlarının rolu və vəzifələri"




# "Haqsız rəqabətə qarşı mübarizə üzrə metodik materiallar toplusu"

# 2023-cü il ərzində Palata əməkdaşlarının və üzvlərinin KİV-də fəaliyyətləri

**Müsahibələr, çıxışlar - 20**
**Məqalələr - 18**






# DİQQƏTİNİZƏ GÖRƏ MİNNƏTDARIQ

**AZ1072, Bakı şəhəri, S.Y.Bakuvi küçəsi 35.**
**E-mail: audit-azerbaijan@audit.gov.az**
**www.audit.gov.az**